

*Biz siyasi leksikona "Zəngəzur dəhlizi" sözünü daxil etmişik. Nəinki regionun, dünyanın aparıcı kütləvi informasiya vasitələri Zəngəzur dəhlizi haqqında danışırlar, yazırlar.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti.*

**"Keçən ay İranla Azərbaycan arasında körpülərin, dəmir yolu körpülərinin tikintisi ilə bağlı memorandum imzalanmışdır. Eyni zamanda, o memorandumda elektrik xətlərinin çəkilişi ilə bağlı müddəa var". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 12-də bu ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə deyib. Bu işlərə tezliklə başlamalı olduğumuzu bildirən ölkə başçısı qeyd edib ki: "Hər halda, Azərbaycan ərazisində görüləcək işlərlə bağlı bu il konkret təkliflər verilməlidir. Cəbrayıl yarımstansiyasından Zəngilana qədər xətlərin çəkilməsi və İran İslam Respublikası ilə son razılaşmaya gələndən sonra artıq İran üzərindən bu xətt gedə bilər. Eyni zamanda, avtomobil körpülərinin və dəmir yolu körpülərinin inşası da nəzərdə tutulur. Əlbəttə, bu, Zəngəzur dəhlizinin açılmasını inkar etmir. Zəngəzur dəhlizi açılmalıdır. Zəngəzur üzərindən həm dəmir yolu, həm avtomobil yolu məsələsi ilə bağlı aprelin 6-da Brüsseldə geniş fikir mübadiləsi aparılmışdır. İran üzərindən yolun Naxçıvana çəkilməsi və oradan dünya bazarlarına çıxarılması layihəsi də artıq hazırlanır. Ümid edirəm ki, yaxın gələcəkdə təməlqoyma mərasimi də keçirilə bilər və beləliklə, yeni beynəlxalq nəqliyyat dəhlizi açılacaqdır".**




# Azərbaycanın

## Cənubi Qafqazda yaratdığı geosiyasi reallıqlar

Sülh, barış və əməkdaşlığın bərpa olunmasında prinsipial əhəmiyyət daşıyan Zəngəzur dəhlizi özünün siyasi çəkisinə görə də fərqli baxış yaradır. Azərbaycan, Rusiya və Ermənistan arasında 10 noyabrda imzalanan üçtərəfli atəşkəs bəyanatında qeyd olunan məsələlərdən biri də Naxçıvanı Azərbaycanın digər hissələri ilə birləşdirəcək Zəngəzur dəhlizinin açılmasıdır. Prezident İlham Əliyevin tələbi ilə bəyanata 9-cu maddənin salınması çox mühüm diplomatik qələbə idi. Bu maddə ilə bütün iqtisadi və nəqliyyat əlaqələri blokdan çıxarılır. Naxçıvana dəmir yolu əlaqəsinin bərpası üçün şərait yaranır. Eyni zamanda, dəhlizin qitələrarası əhəmiyyəti, Çindən Qərbə doğru yeni nəqliyyat yolunun açılması deməkdir. Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya edilməsi üçün Zəngəzur dəhlizi Avropa və Asiya qitələri arasında önəmli ticarət marşrutu kimi çıxış etmək potensialına malikdir. Zəngəzurdan keçəcək nəqliyyat, kommunikasiya, infrastruktur layihələri digər ölkələr üçün də əlavə imkanlar yaradacaq. Dəhliz, eyni zamanda Azərbaycanın Türkiyə ilə əlaqələrini gücləndirəcək və ölkəmizin yeni geoiqtisadi əhəmiyyətini daha da artıracaqdır. Türkiyə əsas iqtisadi tərəfdaşlarından olan Azərbaycana quru yolu ilə birbaşa çıxış əldə edəcək.

Zəngəzur dəhlizinin açılması tarixi zərurətdir. Bu dəhliz Ermənistanın 30 il əvvəl Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiası və torpaqlarımızın işğalı nəticəsində bağlanmış, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanı quru yolla respublikamızdan ayrı salmışdır. Bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə Zəngəzur üzərindən keçəcək həm dəmir, həm avtomobil yolu məsələsi ilə bağlı aprelin 6-da Brüsseldə geniş fikir mübadiləsinin aparıldığını xatırladan dövlət başçısı deyib: "İran üzərindən yolun Naxçıvana çəkilməsi və oradan dünya bazarlarına çıxarılması layihəsi də artıq hazırlanır. Ümid edirəm ki, yaxın gələcəkdə təməlqoyma mərasimi də keçirilə bilər və beləliklə, yeni beynəlxalq nəqliyyat dəhlizi açılacaqdır. Ümumiyyətlə, bizim nəqliyyat infrastrukturu ilə bağlı olan bütün planlarımız vaxtlı-vaxtında yerinə yetirildi". Onu da qeyd etmək lazımdır ki, bu dəhlizin açılması bir çox məqsədlərə, hədəflərə xidmət göstərir. Əvvəla, bu dəhlizin açılması ilə Azərbaycanla Türkiyə yeni bir nəqliyyat layihəsi ilə birləşəcək. Məlum olduğu kimi, 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılış mərasimi oldu və Azərbaycan bu dəmir yolu sayəsində Türkiyə ilə birləşdi. Zəngəzur dəhlizi isə ikinci bir birləşmə istiqaməti olacaq. Beləliklə, ölkəmiz üçün yeni fürsətlər ortaya çıxacaq. Eyni zamanda, Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə də dəmir yolu ilə birləşəcək.

***Zəngəzur dəhlizi sülhün və əməkdaşlığın bərpa olunmasında mühüm əhəmiyyət daşıyır***

Bundan başqa, Azərbaycan tələb edir ki, Ermənistanın nəzarəti altında olan Qərbi Zəngəzur ərazisində, Mehri bölgəsində avtomobil yolu da çəkilsin. Çünki Zəngəzur dəhlizinin tam fəaliyyəti üçün həm dəmir, həm də avtomobil yolu olmalıdır. Onu da qeyd edək ki, artıq Azərbaycan Bərdə-Ağdam dəmir yolunun inşasına başlayıb. Bu dəmir yolu Horadiz-Ağbənd-Zəngəzur dəhlizinin bir parçasıdır. 100 kilometr uzunluğu olan dəmir yolunun 60 kilometri artıq hazırdır. Dörd və altı zolaqlı avtomobil yolu da çəkilir.

Zəngəzur dəhlizinin çox mühüm regional və beynəlxalq əhəmiyyəti vardır. Bu gün Zəngəzur dəhlizi regionun qaçılmaz reallığıdır. Dəhlizin açılışı ilə Çindən başlayan, Xəzər regionundan Türkiyəyə, oradan isə Şərqi Aralıq dənizi və Şimali Avropa istiqamətində dünyanın ən böyük ticarət dəhlizi yaradıla bilər. Prezident İlham Əliyev çıxışlarında beynəlxalq yükdaşımalar uğrunda gedən rəqabət məsələsinə toxunaraq Azərbaycanın nəqliyyat habına çevrilməsi üçün görülmüş işlər haqda da dəfələrlə məlumat verib. Kommunikasiyaların açılması, Zəngəzur dəhlizinin bərpa edilməsi nəticəsində Zəngəzur dəhlizi bölgə və beynəlxalq yükdaşımalarında mühüm həlqəyə çevriləcək. Həmçinin indi tarixi Azərbaycan torpağı olan Zəngəzur türk dünyasını birləşdirən bir körpü olacaq. Bu yol bir əsrdən artıq ayrı qalan ərazilərimizi bir-birinə bağlamaqla yanaşı, həm də Avropa ilə Asiya arasında əsas tranzit xəttin yaranmasını təmin edəcək. Bu tranzit xəttinin Azərbaycandan keçməsi ölkəmizin həm region, həm də dünya səviyyəsində geopolitik mövqeyinə çox ciddi bir töhfə olacaq. Zəngəzur dəhlizi icra edildikdən sonra Çindən yola çıxan yükün qısa bir müddət ərzində ölkəmiz vasitəsilə Avropaya çatdırılması təmin ediləcək.

Qeyd edək ki, Zəngəzur dəhlizinin açılması regionun bütün ölkələrinin iqtisadi maraqlarına cavab verir. Azərbaycan Şərq-Qərb, Şimal-Cənub kimi marşrutların vacib bəndidir və bu baxımdan Zəngəzur dəhlizi həm Şimal-Cənub, həm də Şərq-Qərb marşrutlarının kəsişmə nöqtəsi olduğu üçün özünəməxsus rol oynayır. Bu dəhlizin yaradılması bütün regionda nəqliyyat kommunikasiyalarının inkişafına böyük təsir göstərəcək. Zəngəzur dəhlizi Cənubi Qafqazda nəqliyyat inteqrasiyasının genişləndirilməsinə kömək etməklə yanaşı, Asiyadan Avropaya ən qısa quru yolu təmin edəcək. Zəngəzur dəhlizinin böyük potensialı var və məhz diplomatik səylər, yeni iqtisadi layihələrin inkişafı regionda təhlükəsizliyi böyük ölçüdə təmin edə bilər. Burada digər bir vacib məqam isə bu dəhlizin bir çox ölkəyə gətirəcəyi dividentdir. Həmçinin qaz satışında qiymətlərlə bağlı, İran-Naxçıvan, İran-Türkiyə, Ermənistan-İran münasibətləri kimi məsələlər də Zəngəzur dəhlizindən asılıdır. Bütün bunların fonunda bu dəhlizin əhəmiyyəti hər kəs üçün aydındır. Bununla yanaşı, Qazax tərəfdən açılacaq kommunikasiya gələcəkdə Avropaya çıxış üçün, eyni zamanda, Qərblə-Şərqin birləşməsi üçün əhəmiyyətli rol oynayacaq.

Azərbaycanla İran arasında, qonşu ölkənin ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan MR arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması da tarixi hadisə oldu. Sazişə əsasən, Araz çayı üzərində tikilən körpülər vasitəsilə Zəngilan və Ordubad rayonları avtomobil, dəmir yolu, elektrik, qaz, rabitə xətləri ilə birləşdiriləcək. Bu saziş Azərbaycan və İranın dövlət maraqlarına xidmət edən layihənin reallaşması üçün yeni mərhələnin başlanması deməkdir. Beləliklə, Zəngəzur dəhlizinin açılması istiqamətində Azərbaycan dövlətinin atdığı son addımlar zamanın ən aktual məsələlərindəndir. İstər ölkə ictimaiyyəti, istər region ölkələri, istərsə də dünya bu prosesi maraqla izləyir. "Mən bir məsələyə də diqqət yetirmək istərdim. Ermənistan da görməlidir ki, o, bizim planlarımızı əngəlləyə bilməz. Əgər Zəngəzur üzərindən bizə keçid verməsə, özü itirəcək və birinci növbədə, 10 noyabr Bəyannaməsini pozmuş olacaq. Çünki 10 noyabr Bəyannaməsində açıq-aşkar yazılıb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqə olmalıdır və bu, Ermənistanın öhdəliyidir. Əgər o, öz öhdəliyini yerinə yetirmək istəmirsə, onda biz də hər hansı bir öhdəliyin yerinə yetirilməsi ilə bağlı heç bir məsuliyyət daşımayacağıq. Onlar bunu bilməlidirlər, vaxtı uzatmamalıdırlar. Onsuz da biz istədiyimizə gec-tez nail olacağıq. Daha yaxşı olar ki, onlar özləri də bir az cəld tərpənsinlər. Yoxsa yenə də dalan kimi qalacaqlar", - deyə Prezident İlham Əliyev qeyd edib.

Mustafa KAMAL,
"Respublika".